## İdman xəbərləri

# İdmançımız rəqibini məğlubiyyətə uğradıb



Olimpiya Təsnifat Turnirində "Qəbələ" İdman Klubunun boksçusu Kamran Şahsuvarlı 75 kq çəki dərəcəsində 1/32 finalda Edin Avdiçlə (Avstriya) üz-üzə gəlib. O, rəqibini Böyük Britaniyanın paytaxtı Londonda boks üzrə Avropa 4:1 hesabı ilə məğlubiyyətə uğradıb.

# Boksçumuz yarışa qələbə ilə başlayıb



Böyük Britaniyanın paytaxtı Londonda boks üzrə Avropa Olimpiya Təsnifat Turnirində "Qəbələ" İdman Klubunun daha bir boksçusu yarışa qələbə ilə başlayıb. Turnirin ikinci günündə ringə çıxan Cavid Çələbiyevin (63 kq) debütdəki rəqibi Kiril Rusinov (Bolqarıstan) olub. 1/16 final mərhələsi çərçivəsində baş tutan görüşdə təmsilçimiz qələbə qazanıb - 4:1

# Bunları bilmək maraqlıdır

- Kenqurular ömrü boyu su içmirlər. Onlar suyu yedikləri bitkilərdən hasil edirlər.
- Ən cəld heyvan leoparddır. O, saatda 110-140 kilometr sürətlə qaça bilir.
- Ən uzaq tullanan heyvan porsuqdur. O 15 metr uzağa tullana bilir.
- Ən zəhərli heyvan cənubi Amerikada yaşayan kokon qurbağasıdır. Onun zəhəri gürzə zəhərindən güclüdür.
- Ən iri heyvan-göy balinadır. Onun çəkisi 150 ton, uzunluğu 25-30 metrdir. Mədəsinin tutumu 2 tondur. Yeni doğulmuş balasının çəkisi 1,5-2 tona, uzunluğu 9 metrə çatır. Bala gündə 600 litr süd içir.
- Ən çox yuxuya gedən heyvan kirpidir. O, ilin 236 gününü, ayı isə 180 gününü yuxuya gedir.
- Ən iri balıq cənubda yaşayan köpək balığıdır. Onun uzunluğu 15-23 metrə, çəkisi 20 tona çatır.

**Topladı: Səfa ASLANOV.**

## Xalq təbabəti

# Mixəyin möcüzəli faydaları

Mixəkdən ədviyyat və dərman vasitəsi kimi xalq arasında geniş istifadə olunur. Özünəməxsus qoxusu olan mixəyin qönçələri qurdqovucu xüsusiyyətə malikdir. Çayda ondan istifadə olunması isə həzm sistemini yaxşılaşdırır.

Mixək, həzm fermentlərini stimullaşdırır, həzmi sürətləndirir, şişkinliyi, mədə problemlərini və mədə bulantısını azaldır. Həzm sistemini yaxşılaşdırmaq üçün, mixək qönçələri əvvəlcə qovrulur, daha sonra toz halına gətirilir. Dadı xoşa gəlməzsə balla qarışdırılaraq qəbul edilir.

Güclü antiseptik təsirə malik olan mixək insan orqanizmində bakteriyaları məhv edir. Qədim Çin təbabətində onun yağı ilə dəri xəstəliklərini müalicə ediblər. Hazırda bu bitkidən orqanizm üçün antiseptik, ağrıkəsici, tonuslandırıcı, sakitləşdirici, virus əleyhinə, spazmolitik, göbələk əleyhinə geniş istifadə olunur.

Uzun illər aparılan araşdırmalardan məlum olub ki, mixək xüsusi ilə ağ ciyər xərçənginin ilkin mərhələsində ən yaxşı müalicə üsuludur.

İmmun sistemini gücləndirən mixək xüsusilə qaraciyəri zərərli təsirlərdən qoruyur, xərçəngə qarşı mübarizə aparır.

Tədqiqatlar göstərir ki şəkər xəstəsində mixəyin ekstraktı qlükoza səviyyələrini nəzarətdə saxlayır,



sümükdə qoruma xüsusiyyəti daşıyır.

Mixəkdə olan maddələr sümük yorğunluğunu aradan qaldırır, sümükdəki mineralları balansda saxlayır.

Bu bitki immun sistemini qorunmasında olduqca təsirlidir. Südmixək qarışığı potensiyanı artırır. Çayı ağ qan hüceyrələrinin sayını artırır, insanın ruh düşkünlüyünü aradan qaldırır və əhval-ruhiyyəsini yaxşılaşdırır.

Ağrıkəsici xüsusiyyətinə malik olan mixək menstural problemləri normallaşdırır, bağırsaq qurdlarının tökür.

Qulaq ağrısı zamanı dəmləməsini qulağa tökdükdə ağrını kəsir. Bu zaman 5 ədəd mixəyin üzərinə küncüt yağı əlavə edib qaynatmaq və gündə 3 dəfə qulağa damızdırmaq kifayət edir.

Ağız qoxusunu aradan qaldıran mixək qönçəsi bir neçə ağız xəstəliklərinə qarşı qoruyucu rolu oynayır, diş ağrısına və damaq boşluğuna müsbət təsir edir. Onun çayı soyuqlama xəstəlikləri zamanı əmələ gələn bəlğəmin xaric olmasını sürətləndirir.

Baş ağrısından xilas olmaq üçün mixək dəmləməsi yaxşı təsir göstərir. Bu zaman bir stəkan südün içərisinə iki ədəd mixək qönçəsi salınır və bir çimdik duz əlavə edilərək qarışdırılır.

Artıq piylərdən xilas olmaq üçün mütəmadi olaraq mixək çayı içmək faydalıdır.

Onun orqanizmə xeyiri ilə yanaşı zərərləri də var. Həddindən çox istifadə edildikdə alergik təsirlər də yarada bilir. Bunun üçün mixəkdən davamlı istifadə etməzdən əvvəl alergik xüsusiyyətinizin olub-olmadığını yoxlamaq məsləhətdir.

# Atmosferin təmizliyi kosmosdan izləniləcək

***NASA, Cənubi Koreya və Avropa Kosmik Agentliyi real zaman rejimində Yer kürəsində havanın təmizliyini izləməyin mümkün olacağı peyk sisteminin hazırlanması üzərində işləyir.***



Atmosfer çirklənmələrinin izlənilməsi üçün ilk cihaz Cənubi Koreyanın okean səthinin monitorinqi üçün nəzərdə tutulan peykin tərkibində buraxılmış ətraf mühitin monitorinqi üçün geostasionar spektrometri olub.

AZƏRTAC xəbər verir ki, 2022-ci ildə NASA kosmosa əlaqə peykinin tərkibində cihaz göndərməyi planlaşdırır. 2023-cü ildə isə Avropa Kosmik Agentliyi havanın keyfiyyətini izləyən iki cihaz göndərərək peyklər qruplaşmasına qoşulacaq.

Toplanılan məlumatlar atmosferə azot dioksidi, formaldehid və aerozollar atan çirklənmə mənbələri ilə mübarizə aparmağa kömək edəcək. Məlumatlar hər saat yenilənəcək, bu isə epizodik çirklənmələri (məsələn, zərərli maddə tullantılarının ən çox yayıldığı vaxtı) aşkar etməyə imkan verəcək.

Peyklərin tərkibində kosmosa göndərilən cihazlar vasitəsilə çirklənmələrin meydana gəldiyi yer müəyyənləşəcək və onların hərəkət yolu izlənəcək.

# Yeni funksiyalar təqdim edilir

***"Facebook" şirkəti məxfiliyi qorumaq üçün yeni funksiyalar təqdim edir.***

***Sosial şəbəkə istifadəçilərə "Məxfiliyin yoxlanması" ("Privacy Checkup") bildirişini göndərməklə xəbərdarlıq etməyə başlayıb. Bununla istifadəçilər bütün məxfilik parametrlərini yoxlaya və lazımi dəyişikliklər edə bilərlər.***

"Facebook" sosial şəbəkəsi insanlara şirkətlə hansı xidmətlərin və yerlərin istifadəçi məlumatlarını paylaşdıqlarını öyrənməyə imkan verən "Facebookdan kənar fəaliyyət" ("Off-Facebook Activity") əlavəsini də təqdim edir.

Bundan başqa, "Facebook" öz istifadəçilərinə xəbərdarlıq etmək üçün kənar xidmətlərin onların




profilinə girişi və şəxsi məlumatlarından istifadəsi ilə bağlı bildirişləri də göndərəcək.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

# İtmişdir

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 saylı qərarı ilə Məmmədağalı kənd sakini **Yaralıyev Hacı Cüləmməd oğluna və ailə üzvlərinə** venrilmiş JN seriyalı 0071 nömrəli (kod 40603048) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İnkişaf Komissiyasının 25 iyun 1998-ci il tarixli 11 nömrəli qərarı ilə Tikanlı kənd sakini **Ağahüseynov Fəxrəddin Novruz oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 0024 nömrəli (kod 40615018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 iyun 1998-ci il tarixli 11 nömrəli qərarı ilə Qəmərvan kənd sakini **Abuşov Nadir Bulud oğluna** verilmiş JN seriyalı 280 nömrəli (kod 40600058) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 10 iyun 1998-ci il tarixli 11 saylı qərarı ilə Kiçik Pirəli kənd sakini **Allahverdiyeva Yaxşı Tağı qızına və ailə üzvlərinə** veilmiş JN seriyalı 0080 nömrəli (kod 40602028) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 fevral 2001-ci il tarixli 03 saylı qərarı ilə Qəbələ şəhər sakini **İsmayılov Mehman Ramazan oğluna və ailə üzvlərinə** veilmiş JN seriyalı 1764 F nömrəli (kod 40601004) **torpağın mülkiyyətə verilməsinə dair şahadətnamə** itdiyi üçün etibarsız sayılır.

Redaktor
Varis Yaqubov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*
*Məsul katib Qüdrət Səmədov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Son dəqiqə» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1160*